# ADNSU-da Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər keçirilir



Azərbaycan Prezidenti İlham Əliyevin 16 may 2017-ci il tarixində imzaladığı Sərəncama əsasən, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi ölkəmizin hər yerində geniş şəkildə qeyd olunur. Müxtəlif təşkilat və idarələrdə, eləcə də, ali təhsil müəssisələrində tədbirlər təşkil edilir. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində də Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər keçirilir.

Növbəti tədbir universitetin Qaz, Neft və Mədən fakültəsinin birinci kursunda təşkil olunmuşdu. İctimai fənlər kafedrasının müdiri Camal Mustafayev bildirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbirlərin keçirilməsi bu kafedraya həvalə olunub: “Bu günə qədər Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Tədbirlər Planına əsasən, dəyirmi masalar, açıq dərslər, müzakirələr və digər tədbirlər keçirilib. Bugünkü tədbirimiz də həmin tədbirlərin davamıdır. Bu yaxınlarda isə universitetdə Azərbaycan Xalq Cümhüriyyətinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçiriləcək”.

İctimai fənlər kafedrasının baş müəllimi Sevda Yusifova dərs zamanı tələbələrə Şərqdə qurulan ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətinin gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərdiyini bildirərək, bir çox sahələrdə həyata keçirdiyi islahatlardan danışdı. Qeyd etdi ki, Azərbaycan tarixində mühüm bir mərhələnin əsasını qoyan Azərbaycan Xalq Cümhuriyyəti üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi, Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi və dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi.

Tələbələrdən Kamran Vəliyev və başqaları Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixidən və ilk dəfə olaraq, Azərbaycan adlı müstəqil dövlətin əsasının qoyulduğunu bildirdilər.

***Nəzakət ƏLƏDDİNQIZI***